**Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

**№ 181 (1549) 3 oktyabr 2017-ci il**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

# YENİ UĞUR: "SEVGİ ÖLMÜR"

**Ölkəmizin qocaman sənət məbədindən biri olan Gəncə Dövlət Dram Teatrı özünün 123-cü teatr mövsümündə Ofelya Mədətqızının "Sevgi ölmür" lirik dramının ictimai baxışını tamaşacılara təqdim etmişdir.**

Əvvəla, öz yaradıcılıq potensialı ilə ölkənin teatrsevərlərinə yaxşı tanış olan GDDT-nin keçdiyi tarixi yola nəzər salarkən danılmaz faktla qarşılaşırıq. Kollektiv uzun illərdir ki, nəinki, yaradıcılıq maneraları, tamaşaya qoyduğu əsərləri, mövzu aktuallığı, maraqlı səhnə təcəssümü və orijinal aktyor oyunu ilə tamaşacıların sevimlisinə çevrilmişdir. Eləcə də ölkənin teatr və kino sənətinin inkişafında mühüm rol oynayan istedadlı sənətkarların yetişdirilməsində də müstəsna xidmətləri olmuşdur. Bütün bu uğurlarına baxmayaraq, teatr son zamanlar tamaşaçı qıtlığı ilə qarşılaşmalı olmuşdur. Bunun obyektiv və subyektiv səbəbləri olsa da, qeyd edək ki, qədirbilən, sənətsevər tamaşaçı həmişə bu sənət məbədini öz surətli alqışları, isti nəfəsləri ilə sevindirmək arzusunda olmuşdur. Lakin son illər bu alınmırdı. Niyə?!. Bu sualın müxtəlif cavabları ola bilər!..

Cəsarətlə deyə bilərik ki, kollektivin ictimai baxışını təqdim etdiyi Ofelya Mədətqızının "Sevgi ölmür" lirik dramı bu tilsimi cəsarətlə qıra bildi. İstər salonda, istərsə də lojalarda bütün yerlər tutulmuşdur. Teatr işçiləri məcbur olub, salona əlavə skamyalar qoymalı oldular, Bu, əlbəttə birgə yaradıcı əməyin uğuru idi!..

"Sevgi ölmür" lirik dramı iki gəncin birbirinə olan saf məhəbbətin, ülvi sevginin bariz nümunəsidir. Nərgizlə Cəfər bir-birini böyük məhəbbətlə sevirlər, Gənclər toya hazırlaşırlar... Lakin avtomobil qəzası onların bu arzusunu yarımçıq qoyur. Cəfər yaralanır, Nərgiz isə belindən ağır zədə alır, fəqərə sümüyü ciddi surətdə yaralanır, ayaqları iflic olur.

Bu azmış kimi, Nərgizin rəfiqəsi Lalə bu iki gəncin saf eşqinə şərik çıxır. Cəfərin anası ilə birləşib iflic, əlil arabasında gəzən Nərgizin məhəbbətini əlindən almaq üçün fitnə-fəsadlara əl atır. Cəfərin anası Sara xanım oğlunun əlil qızla evlənməsinə qəti etiraz edir. Nərgizin anası Yasəmən dözülməz əzablara düçar olur. Hadisələrin cərəyanında saf sevginin qələbəsinə çalışan qüvvələr birləşsə də, gənclərin bu sevgisinin qarşısında zaman və məkan çox aciz görünür. Hadisələr olduqca maraqlı və ardıcıl şəkildə davam edir.

Nərgiz öz taleyi ilə razılaşıb təkliyə qapılır. Cəfər iki od ayrıcında qalsa da, məhəbbətindən, saf eşqindən dönmür. Onun atası Əbülfəz bu iki gəncin məhəbbətinə hörmətlə yanaşır, Nərgizin sağalması üçün bütün imkanlarını və ümidlərini səfərbər edir.

Nərgiz arzularının puç olmasından bədbin bir aləmə qapılır.

Cəfərin dostu Rüstəm, epizodik rol olsa da, Əbülfəz kişi ilə birləşib hadisələrin müsbət həllində aparıcı rol oynayır!..

Faciə notları üstündə köklənmiş bu lirik dram Cəfərin sönməz məhəbbəti, Əbülfəzin qayğıları, Rüstəmin inamlı addımları nəticəsində xoş bir sonluqla başa çatır, saf məhəbbət qalib gəlir...

Əslində "Sevgi ölmür" lirik dramı avtoportret xarakterli sənət əsəridir. Müəllif- Ofelya Mədətqızının özü birinci qrup əlildir. Uzun müddət yataq xəstəsi olub. Ömür-gün yoldaşının, doğmalarının və ədəbi dostlarının qayğısı onun həyat eşqini artırmış, çıxış yolunu gənclik dövründən vurğunu olduğu ədəbi yaradıcılıqda tapmışdır. Qələmini poeziyada, nəsrdə, publisistikada və nəhayət dramaturgiyada sınamağa başlamışdır.

AYB və AJB-nin üzvü, birinci qrup əlil Ofelya Mədətqızı altı kitab müəllifidir. Beş dəfə əlillərin ümumrespublika bədii yaradıcılıq baxış-müsabiqəsinin qalibi olmuşdur. "Qafqaz-Media" İB-nin "Cəsarətli qələm", "Vicdanlı qələm" və "Xəmsə" mükafatlarını almış, "Qızıl qələm" laureatıdır, çoxlu sayda fəxri fərmanlarla təltif edilib.

"Sevgi ölmür" onun ilk dram əsridir.

Altıncı - "Mən səni özümə qaytaracağam" 25 çap vərəqi həcmində kitabının (redaktoru bu sətirlərin müəllifidi) keçən il "Qafqaz-Media" İB-nin təşəbbüsü Beynəlxalq Mətbuat Mərkəzində təqdimatı keçirilib.



Uğurlu tamaşa kollektiv əməyin bəhrəsidir, Təsadüfi deməyiblər ki, bədii bütövlüyə malik hər bir tamaşa əsl sənət əsəridir. Söz yox ki, tamaşanın bədii bütövlüyü onu hazırlayan quruluşçu rejissorun peşə funksiyasının ən vacib tələblərindən biridir. Bədii bütövlük, sözsüz, "Sevgi ölmür" lirik dramın quruluşçu rejissoru, istedadlı gənc Elşad Əhmədov fantaziyasının əməli bəhrəsidir. O, əsərdəki hadisələri ustalıqla parça və hissəciklərə bölmək qabiliyyətinə malikdir. Rejissor tamaşadakı hadisələrin müxtəlif keyfiyyətlərini görür və eşidir. O, hətta tamaşanın temp-ritmini yaxşı duya bilmişdir.

Elşad Əhmədov ADMİU-nun teatr və kino sənəti fakültəsinin dram-kino aktyorluğu ixtisası üzrə unudulmaz sənətkar, xalq artisti Həsənağa Turabovun kursunu bitirmişdir. 2002-ci ildə Azərbaycan Teatr Xadimləri İttifaqının keçirdiyi A.M.Şərifzadə adına "ÜFÜQ XXI" ekstrimental Tamaşalar Festivalında S.Bekketin "İlk məhəbbət" hekayəsi əsasında hazırlanmış eyniadlı mono tamaşadakı ifasına görə festivalın "Cəsarətli yaradıcılıq işi" nominasiyası ilə təltiv olunmuşdur. 15 ildir GDDT-da aktyor işləyir. 2006-cı ildə "Açıq cəmiyyət institutu" və "YUĞ" teatrının birgə təşkilatçılığı ilə "Mən, Sən və biz" beynəlxalq Teatr layihəsinin iştirakçısı olub. 2007-ci ildə H.Cavidin 125 illiyinə həsr olunmuş "Deyilən söz yadigardır" II ümumrespublika bədii qiraət müsabiqəsinin, K.Abdullanın "İstintaq" hekayəsinin motivləri əsasında səhnələşdirdiyi və quruluşçu rejissoru olduğu "Sərgərdan" psixo-dramatik-zikr" tamaşası ilə 2011-ci ildə teatr xadimləri ittifaqının keçirdiyi "Ekstrimental tamaşalar" festivalının iştirakçısı və diplomçusu olmuşdur. E.Əhmədov aktyor kimi bir çox yaddaqalan obrazların səhnə təcəssümünü yaratmışdı. Dəfələrlə beynəlxalq teatr festivalının iştirakçısı olmuşdur. Son üç ildə GDDT-da 6 tamaşanın quruluşcu rejissoru kimi uğur qazanmışdı.

Elşad Əhmədov "Sevgi ölmür" lirik dramının səhnə həllində özünün, demək olar ki, bütün gücündən səmərəli istifadə edə bilmişdir. Nəticədə tamaşanın bədii obrazı mükəmməl surətdə yaradılmışdır. Məlumdur ki, bu, çox ağır və böyük yaradıcılıq məsuliyyəti tələb edən bir prosesdir. Elşad gənc olsa da bu prosesdən ustalıqla istifadə edə bilmişdir.

Müəlliflə rejissorun birgə işi, aktyor oyununu kamilləşdirmişdir. Tamaşanı yaradan aktyorlar, rəssam və teatrın başqa komponentləri ilə rejissorun birgə əməli işinin toplusu uğurlu alınmışdır. Necə deyərlər. Ofelya Mədətqızının kompozisiyası rejissorun kompozisiyasına uğurla çevrilmiş və sevindirici haldır ki, tamaşanın hər bir şəkili alqışlarla qarşılanmışdır.

Aktyor oyunu bir-birini tamamlayır. Nərgizin (Günay Cabbarova) faciəli taleyi, bədbinliyə qapılması, həyata, sevgisinə inamsızlığı təbii və inandırıcıdır.

Cəfərin (Şahmar Məmmədov) Nərgizə qarşı istək və məhəbbəti, ikinci aşiqi Ləlayə etinasızlığı, anası Saranın inadkarlığına qarşı mübarizə gənc aktyorun istedadının bəhrəsi kimi tamaşaçıya təqdim olunur.

Nərgizin anası Yasəmənin (Rahilə Məmmədova) ahu-fəqanı, çiyərparəsinin faciəsinə acıması aktyorun böyük ustalığından xəbər verir. Rahilə Məmmədova hadisələrin cərəyanında özünün daxili potensialından və çoxillik aktyor təcrübəsindən məharətlə istifadə edir.

Nərgizin rəfiqəsinin onun faciəsindən istifadə edərək, səadətini əlindən almaq üçün canfəşanlığı Lalə (Sevinc Hüseynova) obrazında təcəssüm olunsa da, Cəfərin dostu Rüstəm (Murad Mehdiyev) tərəfindən cəsarətlə kölgədə qoyulur. Xeyirlə Şərin mübarizəsi son məqamda Xeyirin qələbəsi ilə nəticələnir.

Pyesdə əməkdar artistlər-Cəfərin atası Əbülfəz (Salamulla İsmayılov) və Cəfərin anası Sara (Sevda Orucova) duetləri hər iki aktyorun böyük ustalığını özündə təcəssüm etdirir.

"Sevgi ölmür" tamaşasının uğurlarından bir qismi istedadlı teatr rəssamı Vahab Cəfərov, musiqi tərtibatçısı Tünzalə Mustafayeva və işıq rəssamı Aydın Abbasovun payına düşür desək, səhv etmərik. Hər üçü də tamaşanın maraqlı səhnə həlli üçün əllərindən gələni əsirgəməmişlər. Şəkillər arasındakı keçidlər istər musiqi, istərsə də işıqların "rəqsi" ilə rejissor fantaziyasını tamamlayır, ona maraqlı və inandırıcı rəng verir.

Ümumiyyətlə desək, tamaşa müəllif-rejissor münasibətinin, aktyor oyununun və səhnə tərtibatı, musiqi seçimi və işıqların vəhdətində çox uğurlu və inandırıcıdır. Əgər tamaşada iki gəncin məhəbbəti, sevgisi sınağa çəkilirsə, nəticədə qələbə - vüsal qalib gəlirsə, tamaşa bitəndən sonra, istər-istəməz, əməyi birləşən 12 nəfərin sənətə məhəbbətinin parlaq qələbəsi hər kəsi razı salır. Kollektivin bu ortaq sevginin qələbəsinə alqış deməyə hər bir kəsdə cəsarət yaranır. Tamaşa boyu hiss edirsən ki, müəllif-rejissor, səhnə tərtibatçısı, musiqi və işıq rəssamlığı bütün imkanlardan bacarıqla, sənətə məhəbbətlə, tamaşacıya təqdim olunan əsərə məsuliyyətlə və sevgi ilə yanaşmış, tələbkar tamaşaçıya sonu vüsalla bitən sevgi çələngi təqdim edə bilmişlər. Tamaşada bəzi kiçik qüsurlar da yox deyildir. Lakin inanırıq ki, gələcək məşqlərdə istedadlı rejissor bunları aradan qaldıra biləcəkdir.

**Biz ilk dram əsərinin uğuruna görə Ofelya Mədətqızına, rejissor Elşad Əhmədova, aktyor ansambılına və digər əməyi olan insanlara gələcəkdə daha böyük uğurlar diləyirik.**

***Füzuli Rüzigar,***
***H.B.Zərdabi mükafatçısı***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ